# ƏBƏDİYYƏT YOLU

12 dekabr döndü bir selə
Dünyadan o boyda dağı itirdi.
O gün Klivlenddə qopan zəlzələ
Azərbaycan boyda matəm gətirdi.

Okean üstüylə uçur təyyarə,
Səfərə getmişdi, o, yenə gəlir.
O uçan planet, gəzən səyyarə,
Bu gün son mənzilə Vətənə gəlir.

Bu bir röyadımı, yoxsa nağıldı,
İnan bilmirik, biz də qalmışıq.
Ən uca dağımız uçdu, dağıldı,
Zirvəsiz qalmışıq, düzdə qalmışıq.

Xəbər nə tez çatdı obaya, elə...
Toy-büsat matəmə döndü bir anlıq.
Bir kərə yüksələn bayraqlar  belə
Bu ağır qüssədən endi bir anlıq.

O ulu dahinin, sirli qalanın
Ömrü əsrləri ötən boydadır.
Özü Azərbaycan boyda olanın
İtgisi ağırdır – Vətən boydadır.

Namərdi olan xalq, mərdi olan xalq

Dəfninə gül-çiçək gətirir bu gün.
Köksündə Qarabağ dərdi olan xalq
Ən böyük oğlunu itirib bu gün.

Uzaq Klivlenddən gələn bu xəbər
Minlərlə ürəyi dağlayır indi.
Qəbrin nurla dolsun, ey ulu rəhbər!
Sənsiz Azərbaycan ağlayır indi.

Qisməti, taleyi tanrı yazandı,
Baxmır nə boyuna, nə yasına o.
Gəldi əbədilik ömür qazandı,
Getdi əbədiyyət dünyasına o.

***Vaqif Məmmədov***

***Günəşə qovuşmaq istəyirəm mən! – B.: Çinar –Çap, 2008. - S.35-36.***